Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2022, C.70, №4, s. 122-131
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2022, V.70, №4, pp. 122-131

*UOT 37*

***V.M.Rzayev, A.C.İmanlı***
*Naxçıvan Dövlət Universiteti*
*vahidrzayev23@gmail.com*
*ayshan_imanli@hotmail.com*

# "KASPİ" QƏZETİ BÖYÜYƏN NƏSLİN MÜASİR DÜŞÜNCƏ SAHİBİ KİMİ FORMALAŞMASINDA MƏKTƏBİN VƏ MÜƏLLİMİN ROLU HAQQINDA

***Açar sözlər:*** *"Kaspi" qəzeti, maarifçi-pedaqoji hərəkat, təhsilin məzmunu ümumtəhsil məktəbləri, müəllimlər*

Məqalədə XIX əsrin sonu – XX əsrin əvvəllərində "Kaspi" qəzetində böyüyən nəslin müasir düşüncə sahibi kimi formalaşmasında məktəbin və müəllimin rolu məsələlərindən bəhs olunur. 38 illik bir dövr ərzində rus dilli mətbuat nümunəsi kimi "Kaspi" Azərbaycan həyatının bütün sahələrinin güzgüsü olmaqla yanaşı, milli maarifçiliyin, yeni pedaqoji düşüncənin və məktəb təhsilinin inkişaf etdirilməsi, həmçinin yeni baxışlara malik müəllimlərin formalaşdırılmasının nəzəri və təcrübi məsələlərini işıqlandıran qabaqcıl nəşrlərdən biri olmuşdur. Görkəmli Azərbaycan maarifçiləri H.Zərdabi, Ə.M.Topçubaşov, F.Köçərli, Ə.Ağaoğlu və başqalarının böyüyən nəslin təlim və tərbiyəsi işində köhnə məktəbin və onun müəllimlərinin zamanın tələblərinə cavab verməməsi haqqında tənqidi fikirləri təhlil olunmuş və bu sahədə yeni düşüncənin möhkəmlənməsi işinə xidmət edən məktəblər və müəllimləri haqqında fikirləri öyrənilmişdir.

***В.М.Рзаев, А.Дж.Иманли***

# ГАЗЕТА "КАСПИЙ" О РОЛИ ШКОЛЫ И УЧИТЕЛЯ В ФОРМИРОВАНИИ ПОДРАСТАЮЩЕГО ПОКОЛЕНИЯ КАК НОСИТЕЛЯ СОВРЕМЕННОГО МЫШЛЕНИЯ

***Ключевые слова:*** *газета "Каспий", просветительско-педагогическое движение, содержание образования, общеобразовательные школы, учителя*

В статье рассматриваются вопросы о роли школы и учителя в формировании подрастающего поколения как носителя современного мышления, нашедшие свое отражение в газете "Каспий" конца XIX – начала XX веков. В течение 38-летнего периода "Каспий", как образец русскоязычной прессы, стал зеркалом всех сфер жизни Азербайджана, а также одним из ведущих изданий, освещающих теоретические и практические вопросы развития национального просвещения, новой педагогической мысли и школьного образования, а также формирования учителей с новыми взглядами. В работе были проанализированы критические взгляды выдающихся азербайджанских просветителей Г.Зардаби, А.М.Топчубашева, Ф.Кочарли, А.Агаоглу и других о несоответствии

требованиям времени деятельности старой школы и ее учителей по обучению и воспитанию подрастающего поколения, а также изучены мысли о школах и их учителях, которые служат делу укрепления нового мышления в этой области.

***V.M.Rzayev, A.J.Imanli***

**THE NEWSPAPER "KASPI" ABOUT THE ROLE OF SCHOOLS AND TEACHERS IN SHAPING THE GROWING GENERATION AS A MODERN THINKER**

***Keywords:*** *the newspaper "Kaspi", educational-pedagogical movement, content of education, secondary schools, teachers*

The article deals with the issues of the role of schools and teachers in the formation of the growing generation as a modern thinker. During a period of 38 years, the newspaper "Kaspi", as an example of Russian-language press, has been a mirror of all spheres of Azerbaijani life. In addition to being a mirror of all spheres of life, it is also one of the leading publications covering the theoretical and practical issues of national education, the development of new pedagogical thought and school education, as well as the formation of teachers with new perspectives. The article analyzes the critical opinions of prominent Azerbaijani intellectuals G.Zardabi, A.M.Topchubashov, F.Kocherli, A.Agaoglu and others about the inconsistency of the old school and its teachers with the requirements of the teaching and educating the younger generation. Their opinions about schools and teachers strengthening new thought in this area is studied. Meanwhile, the ideas about schools and teachers in the direction of the formation of new manner of thinking are highlighted in the article.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan ziyalıları Rusiyanın müstəmləkəçilik siyasətinin ağırlığını dərk edərək öz xalqının milli zülmdən azad edilməsi uğrunda mübarizə aparmağa, doğma dilin və mədəniyyətin inkişafına, milli məktəblərin yaradılmasına, milli təhsilin yeni məzmun istiqamətində formalaşmasına kömək etməyə böyük qüvvə sərf edir, dönməz, ardıcıl səylər nümayiş etdirirdilər. Çarizmin ayrı-seçkilik və ruslaşdırma siyasəti şəraitində ziyalılar və ictimai həyatın ayrı-ayrı sahələrində fəaliyyət göstərən qabaqcıl görüşlərə malik şəxslər xalqı oyatmaq üçün çox vacib vasitə kimi yeni təhsil müəssisələrinin açılmasına və bu məktəblərin cəmiyyətin bütün təbəqələrini əhatə etməsinə çalışırdılar. Dövrünün qabaqcıl ideyalarını xalqın ruhuna hopdurmaq istəyən "Kaspi" qəzeti də öz səhifələrində maarif, tərbiyə, mənəviyyat, mədəniyyət məsələlərinə geniş yer ayırırdı. "Tərbiyə insan həyatında başlıca amildir, tərbiyə ocağı isə məktəbdir, yeni təhsil-tərbiyə müəssisələridir" qəzetin əsas devizi idi, desək, səhv etmərik. "Kaspi"nin ətrafında birləşən Azərbaycan maarifçiləri belə bir məramnamənin təbliğatçıları idilər ki, məhz məktəb və müəllimlər təlim-tərbiyə işini sistemli, ardıcıl, elmi-pedaqoji əsasda və yüksək metodiki səviyyədə təşkil edə bilərlər.

“Kaspi”də yeni məktəb və yeni pedaqoji düşüncə sahibi müəllim haqqında ilk fikir və mülahizələr XIX əsrin sonlarındakı Azərbaycan maarifçiliyinin bayraqdarı Həsən bəy Zərdabi olmuşdur. H.Zərdabi 1884-cü ildən özünün maarifçi ideyalarını yaymaq üçün “Kaspi” qəzetindən əsl tribuna kimi istifadə etmişdir. Onun məqalələri maarifçilik ideyalarını əhali arasında yaymaq məqsədlərinə xidmət edən cəsarətli çıxışlar kimi dövrünün ictimai fikrinə əsaslı təsir göstərmişdir. Yeni üsullu məktəblərin açılması, gənc nəslin savad təliminə yiyələnməsi, dünyəvi elmlərin sirlərinə bələd olması, cəmiyyət həyatına baxışlarının yeniləşməsi və onun fəal iştirakçısına çevrilməsi, digər bu kimi məsələlər böyük maarifçinin təbliğ etdiyi əsas fikir, düşüncə qatı idi.

Xalqın öz hüquqlarını dərk etməsi məqsədilə müstəqil məhkəmə vəkilliyi, əhalinin savadlanması üçün məktəblərin açılmasına səy və təşəbbüs göstərmək, ana dilində qəzet nəşr etmək və digər mədəniləşdirici vasitələrin – milli teatrın, yoxsul uşaqların təhsilə cəlb edilməsi üçün xeyriyyə cəmiyyətinin təşkili, qızların təhsili və tərbiyəsi və s. bu kimi maarifçi tədbirlər H.Zərdabinin çoxşaxəli fəaliyyətinin tərkib hissəsi idi. Böyük maarifçinin “Kaspi” qəzetində 280-ə yaxın məqaləsi çap olunmuşdur. Təhlillərimiz göstərir ki, “Kaspi”nin 1881-1897-ci illərə aid nəşr olunmuş saylarında Azərbaycanlı jurnalist kimi ən çox nəşr olunan Həsən bəy Zərdabi olmuşdur. Onun yazıları Azərbaycanda və Rusiya müsəlmanları arasında qabaqcıl ideyaların yayılmasında böyük rol oynamışdır.

Tədqiqat sübut edir ki, H.Zərdabinin pedaqoji-maarifçi görüşlərində məktəb təhsili məsələləri xüsusi yer tutmuşdur. Təhsil, məktəb insanın bəsirət gözünün açılmasına, özünü və milli mənsubiyyətini dərk etməsinə, həyat tərzini yaxşılaşdırmasına, hərəkət və davranışının cəmiyyət normaları ilə tənzimlənməsinə istiqamətlənmiş tərbiyə prosesidir. Böyük maarifçi məktəb məsələsini özünün ictimai fəaliyyətindən ayrı təsəvvür etmir, əksinə, bütün fəaliyyətinin məqsədi, məzmunu, məğzi kimi qiymətləndirirdi. H.Zərdabi biliyi işığa bənzədir və yazırdı ki, kim bilikdən məhrumdursa, o işıqdan məhrumdur. Onun fikrincə, məhz yaxşı təşkil olunmuş məktəblərin sayını artırmaqla bir millət kimi öz yaralarımızı sağalda bilərik [8].

H.Zərdabi bəy və şeyxlərin əlbir olaraq kəndliləri idarə etmək, öz təsir və nüfuzu altında saxlamaq kimi bəd niyyətlərini tənqid edir, bu cür qara qüvvələrlə mübarizə aparmaqdan qorxmayan böyük ziyalı camaatı onların bəd niyyətlərindən, mənfur məqsədlərindən xəbərdar etməyi və qorumağı özünə borc bilirdi. Hamıya məlumdur ki, cahillikdən, avamlıqdan xilas olmaq üçün bir yol var, o da məktəbdir, – deyən H.Zərdabi heç olmazsa əhalisi çox olan kəndlərdə tezliklə dövlət tərəfindən məktəblər açılmasını gündəmə gətirirdi. Yeni məktəblərin yaradılmasını əhali arasında savad, bilik və mədəniyyəti yaymaq üçün çox mühüm, alternativi olmayan vasitə hesab edən böyük maarifçi bu sahədə dövlət idarəçilik orqanlarının məsuliyyətini dönə-dönə

xatırlatmalı olurdu. H.Zərdabiyə görə, bu işdə qubernatorun, xalq məktəbləri direksiyasının, qəza rəisinin, polisin və digər yerli idarəçilik orqanlarının (zemstvoların, xeyriyyə cəmiyyətlərinin, tavanalı şəxslərin) birgə səyi xüsusi rol oynaya bilər. Məhz onlar yeni tipli təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılmasının təminatçısı ola bilər [9].

Həsən bəy Zərdabi hələ "Əkinçi" qəzetində müəyyənləşdirdiyi maarifçi kredonu "Kaspi" qəzetində də davam və inkişaf etdirmişdir. "Kaspi"dəki fəaliyyəti dövründə böyük maarifçi dünyəvi elmləri təlim edən məktəblərin şəbəkəsinin genişləndiriməsi ilə bağlı daha ardıcıl və davamlı şəkildə mübarizə aparır, bu sahə üzrə hər hansı bir təşəbbüsü təqdir edir, onların verəcəyi faydanı yüksək qiymətləndirirdi. H.Zərdabi məqalələrinin birində ("Bizim kənd məktəbləri") göstərdiyi kimi, Zaqafqaziyanın bütün quberniyalarında açılması nəzərdə tutulmuş bu məktəblər kəndlərdə dəyişikliklərə səbəb olar, tez bir vaxtda faydalı nəticələr verə bilər. Müəllif yazırdı: *"Bu cür dəyişikliklər bizim diyara intibah erası gətirəcək: məktəbdə əldə olunmuş biliklər kənd əhalisinin fəaliyyətində tətbiq olunacaq; belə bir öyrənmənin təsadüfi yox, faydalı olduğu görünəcək və xalqın qaranlıqdan, cəhalətdən qurtarmasına kömək edəcək və cəsarətlə demək olar ki, əhali böyük sevinclə belə bir məktəbin görüşünə gedər və onların əksəriyyəti ictimai danışıq və söhbətlərdə iştirakçı olar, tezliklə diyarımız öz yaralarını sağaldar, dinc yaşayış yoluna doğru gedər, məktəblərin açılmasına vəsait toplanması işində həvəslə iştirak edər, diyarın ictimai sabitliyinin mühafizəsi üzrə yerli müdafiə işlərinə böyük fayda verər"* [10, s.219-220].

"Bizim kənd məktəbləri" məqaləsi Həsən bəy Zərdabinin dünyəvi təhsil haqqında baxışlarının təcəssümü, dövrünün sosial sifarişlərinə cavab verə biləcək məktəblərin struktur-məzmun xüsusiyyətlərinə aid fikir və düşüncələrinin aydın və konkret ifadəsidir. Yazının başlanğıcında müəllif oxucunu, pedaqoji mühiti belə bir paradoksal vəziyyətlə tanış edir: indiki halda bizim şərqi Zaqafqaziyada Qafqaz ölkəsinin digər hissələrinə nisbətən xalq təhsili üzrə işlər hissi olunacaq səviyyədə aşağıdır. Əgər Tiflis quberniyasında ibtidai kənd məktəbləri yetmişinci illərdə açılmışdırsa, şərqi Zaqafqaziyada bu cür məktəblərin təsis olunması ancaq son dövrlə bağlıdır. Lakin həm də qeyd etməliyik ki, açılan məktəblərin hər zaman uğur və müəyyən nailiyyətlər əldə etdiyi qənaətini yaratmaq olmaz, – deyən Həsən bəy Zərdabinin bu cəhətin yerli xüsusiyyətlərdən, buradakı məktəblərin fəaliyyət prinsiplərindən, təlim-tərbiyə prosesinin məzmunundan asılı olduğu qənaəti ilə razılaşmamaq mümkün deyil. Müəllif məxsusi olaraq diqqətə çatdırırdı ki, kənd məktəblərində izlənilən məqsədə nail olmaq yolunda yerli xüsusiyyətlərin əsaslı maneə olduğu şübhəsizdir. Bəzi hallarda bu xüsusiyyətlər əsas məqsədlə ziddiyyət təşkil edir, işığın mənbəyi olan biliyin məktəbdə tədris zamanı mənfi nəticələr

doğurmasına səbəb olur, böyüyən nəslin mənəviyyatını korlayır, onu eybəcər hala salır, əməyə, zəhmətə qatlaşmasına və düzgün münasibət göstərməsinə mane olur, onu ziyanlı ünsürə çevirir [10, s.218].

Həsən bəy Zərdabi özünün haqlı olduğunu təsdiq etmək məqsədilə sözünə davam edərək yazırdı:*"Bizim fəaliyyət göstərən məktəblərin yerli əhali üzərində müsbət təsirlərdən məhrum edən bu "xüsusiyyətlərə" toxunmağı niyə vacib hesab etdiyimiz aydın oldu. Hələlik çox təəssüflə qeyd etməliyik ki, əhalinin əksəriyyəti bizim ibtidai ümumtəhsil kənd məktəblərini faydalı hesab etmirlər. Bu isə başlıca olaraq ondan asılıdır ki, bizim müsəlman kəndlərindəki məktəblər tədris-tərbiyə işləri üçün arzu olunmaz şəraitdə fəaliyyət göstərir. Bu məktəblər müsaid olmayan ərazidə yerləşir. Bu məktəblərdə əldə edilmiş biliklər daşlıq əraziyə düşmüş sağlam toxuma bənzəyir. Onlar böyüyüb yetişə bilmirlər. Əgər bu toxumlardan hər hansı biri yaxşı bir torpaq qatına, müəyyən təbəqəyə düşsə belə gec, yaxud tez məhvə məhkumdur"* [10, s.218].

Məqalədə ana dilinin tədrisi məsələlərinə də toxunan Həsən bəy Zərdabi doğru olaraq göstərir ki, sadə xalq bu prosesdə heç də qənaətbəxş olmayan vəziyyətin və onu doğuran səbəblərin yalnız hiss olunan, gözəçarpan nəticələrini görə bilər. Kənd ibtidai məktəblərində Azərbaycan dilinin tədrisi elə müəllimlərə həvalə edilmişdir ki, onlar bu fənnin tədrisinə aid kursları belə bitirməmiş savadsız şəxslərdən ibarətdir. Şübhəsiz ki, belə müəllimlərdən tədris zamanı xüsusi müvəffəqiyyət gözləmək olmaz. Tədris-metodiki işdən məlumatlı olmadıqları üçün bu müəllimlər çətin ki, uğur qazana bilsin. Məktəbə təyin olunmuş nəzarətçilər də (məktəb müdirləri - A.İ.) yerli dili bilmədiklərindən bu fənni tədris edən müəllimlərin uğursuzluqlarının nədən ibarət olduğunu, yaxud hansı uğurlara nail olduğunu müəyyənləşdirə bilmir, təəccüb doğuran cəhət isə ondan ibarətdir ki, məktəbin nəzarətçiləri çox vaxt bu sahəyə, yəni Azərbaycan dilinin tədrisinin gedişinə nəzarət məsələlərinə məhəl qoymur. Nəticədə üç il məktəbə davam edən uşaq Azərbaycan dilində öz familiyasını düzgün yaza bilmir [10, s.218].

Təhsilin, məktəbin böyüyən nəslin inkişafında yeri və rolunu, həyati mənasını doğru-düzgün qiymətləndirən maarifçi Əli Mərdan bəy Topçubaşov məktəb xalqların ümumi rifahının ən etibarlı təminatıdır, yaxşılığın, xeyrin şər üzərində əsl qələbəsidir deyirdi. Müəllif təəssüf hissi ilə göstərirdi ki, hələ bizdə icbari təhsil sistemi yoxdur. Çox az bir qisim fəaliyyət göstərən təhsil müəssisələri isə varlıların kiçik bir azlığının imtiyazındadır. Lakin məktəb təhsilinə xalqın bütün təbəqələrində maraq artır, bu sahəyə ehtiyac gün-gündən getdikcə daha da güclənir. Ə. M.Topçubaşova görə, bu cəhət məhz ictimai həyatın sferası olmalıdır. Məktəb təhsilində "şəxslər, rütbələr və dövlətlər" fərqi qoyulmadan bütün əhalini əhatə etmək, onun inkişafı və çiçəklənməsinə sevinmək, hər bir sakinin təhsil ala bilmək imtiyazı nəzərə alınmalıdır" [11, s.103].

Ə.M.Topçubaşov təhsil müəssisələrinin yaradılmasına, tədris-tərbiyə işinin düzgün təşkilinə ümumin vəzifəsi kimi baxır və yazırdı ki, təhsil müəssisələrinin inkişafına xeyriyyəçi fəaliyyəti ilə yardımçı olan, tədris-maddi bazanın yaxşılaşmasına imkanı olan hər kəsin köməklik göstərməsi o şəxsin müqəddəs borcudur.

Ə.M.Topçubaşov məktəbdə tədris-tərbiyənin düzgün təşkili işinə kömək etmək kimi çox mühüm vəzifəni də müəyyənləşdirirdi. O, göstərirdi ki, hər şeydən əvvəl bu vəzifə məktəbə ən yaxın olanların – müəllimlərimizin üzərinə düşür. Müəllimlər məktəbin bütün yaxşı və pis cəhətləri haqqında xəbərdar olmalıdırlar. Fədakar müəllimlər işlərini sevirlər və müəllim bayrağını uca tuturlar, gənclərimizin tərbiyəsində və təhsilində var qüvvəsi ilə çalışırlar [11, s.104].

Ə.M.Topçubaşov da məktəb və ümumiyyətlə, təhsillə bağlı məsələləri müntəzəm olaraq izləyir, yeri gəldikcə öz fikir və düşüncələrini mətbuat vasıtəsi ilə pedaqoji mühitə çatdırır, əhalinin savadlı təbəqəsi ilə bölüşürdü. Görkəmli maarifçı və ictimai xadim təhlilə cəlb etdiyimiz bu məqaləsində yazırdı: *"Xalq təhsili nazirinin sədrlik etdiyi komissiyanın gəldiyi qənaətlər hələlik nəinki səlahiyyətli qurumlar, hətta mətbuatda da müzakirə olunacaq. Bu cür ciddi məsələlərlə bağlı deyilən hər bir yeni canlı söz islahata hər tərəfdən yanaşmağa imkan verəcək və bununla da onun düzgün həllinə kömək edəcəkdir. Xüsusilə, məktəb yerli xüsusiyyətlərə görə öz ehtiyacları üçün xüsusi tələblər irəli sürdüyü yerdə bu cür kömək lazımdır və vacibdir.*

*Bu baxımdan Qafqaz məktəbinin ən çox təfərrüatlı araşdırmaya ehtiyacı var. Aramızda tayfa, dini və s. münasibətlərdə mövcud olan, təbii olaraq orta məktəbin daxili həyatına təsir edən elə kəskin fərqlər var ki, bu xüsusiyyətlər ilk növbədə, pedaqoji baxımdan nəzərə alınmalıdır"* [11, s.105].

Ə.M.Topçubaşov Qafqaz məktəblərində geniş yayılmış ana dilinin məktəblərdə tədris olunan fənlərin siyahısına daxil edilməsi ilə yanaşı, Qafqaz regionunun, coğrafiyası və tarixinin, ticarət və sənayesinin vəziyyətinin və s. daha ətraflı öyrənilməsi zəruriliyini xüsusi olaraq qeyd edirdi. Böyük maarifçi gənc yaşda olan uşaqların yaş və bilik səviyyələrinə daha çox uyğunlaşdırılmış dərsliklər məsələsinə də xüsusi əhəmiyyət verirdi. Ə.M.Topçubaşov haqlı olaraq göstərirdi ki, Qafqaz məktəbi ilə bağlı məsələlərin özünəməxsus səciyyəvi cəhətləri var ki, (dillərin və dinlərin müxtəlifliyi mənasında) onlar məhz indiki dövrdə, orta məktəbin yenidən təşkili nəzərdə tutulan şəraitdə mətbuatda yer almalı, əsas müddəalarının müzakirəsinin keçirilməsindən sonra layihədə təsbit olunmalı, tətbiqinə göstəriş verilməlidir. Müəllif daha sonra göstərirdi ki, bu məsələlərdə söz ilk növbədə qafqazlı müəllimlərə verilməlidir ki, onların arasında, əminik ki, əlverişli məqamdan istifadə edərək orta məktəbin yenidən qurulması istiqamətində qarşıya qoyulan böyük işlərə öz töhfəsini verəcək və bununla da qarşıya qoyulan vəzifələri yerinə yetirəcəklər.

Bütün bunlar öz peşəsini sevən və bilikli qafqazlı müəllimin üzərinə düşən vəzifədir [11, s.105].

Dövrünün türk dünyasının görkəmli maarifçisi Əhməd bəy Ağaoğlu "Kaspi" qəzeti ilə 1897-ci ildən əməkdaşlığa başlamışdır. O, bu qəzetdə daha çox islam dini ilə bağlı məqalələr yazmışdır. O "Bizim müəllimlərimiz", "İran və inqilabı", "Sərbəst insanlar ölkəsində", "İslamda qadın", "Dövlət və fərd" və digər əsərlərində özünəməxsus maarifçi baxışları ilə seçilən mütəfəkkirlərimizdən biri kimi tanınır.

Ə.Ağaoğlu "Bizim müəllimlər" məqaləsində 20-ci əsrin əvvəllərində Azərbaycan müəllimlərinin fəaliyyətini təhlil edir, o dövrün Azərbaycan məktəbinin acınacaqlı vəziyyətini sübuta yetirən faktlar, dəlillər əsasında yazırdı: *"Ümumiyyətlə ali təhsilli müsəlmanlar özlərinin əqli və əxlaqi maariflənməsi üçün barmaqlarını tərpətməzlər. ...İnsanlardan çox uzaqdırlar, onun dilini, tarixini bilmirlər: xalqa xidmət etmək fikrində deyillər..."* [1].

F.Köçərli də belə bir acınacaqlı vəziyyətin yaranmasına biganə qalmamışdır. O, dönə-dönə söyləyirdi ki, təhsil işinə yaramayan müəllimlərdən çox şey gözləməyin. Böyük maarifçi onlardan xalqı maarifləndirmək sahəsində böyük şücaət gözləməyin mümkün olmadığını təəssüf hissi ilə qeyd edərək yazırdı: *"...Azərbaycan müəllimləri arasında çox təəssüf ki, öz baxışlarının geriliyi ilə ziyalı insanın mənəvi yükünü təşkil edən hər şeyə ziyan vuran belə müəllimlər az deyildir. Qəzet, jurnal, kitab oxumayanlar, savadsızlar, ifrat dərəcədə məhdud olanlar da vardır"* [2]. Lakin F.Köçərli az da olsa, xalqın maariflənməsi işinə əsl xidmət nümunəsi göstərən pedaqoqların da olduğunu qeyd edir, onların millətin maariflənməsində gördüyü işləri təqdir edərək yazırdı ki, *"bizim pedaqoqlar arasında öz işinin məqsədini kifayət qədər düzgün və aydın dərk edən, tam şüurlu olaraq öz zülmətdə qalan məzlum qardaşının maariflənməsi üçün çalışacaq adamlar da var"* [2].

Bir cəhəti də qeyd edək ki, bəhs olunan dövrdə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının azərbaycanlı məzunları xalqın təhsillənməsi işində qabaqcıl pedaqoq-müəllimlər dəstəsi kimi yetişdi. Bu seminariyanı bitirən gələcək müəllimlərin seçdikləri peşəyə sonsuz məhəbbət və xalqına nəcib xidmət ruhundan ilham alması nümunələri XX əsrin əvvəllərində daha da qüvvətləndi. XIX əsrin 60-70-ci illərinin məktəb təhsilində yeniləşmənin, maarifçi hərəkatın nəzəri-təcrübi prinsiplərini hazırlayan Həsən bəy Zərdabi, Rəşid bəy Əfəndiyev, Sultan Məcid Qənizadə, Mahmudbəy Mahmudbəyov və başqalarının pedaqoji fəaliyyəti yeni şəraitdə, yeni əlamət və keyfiyyətlərlə zənginləşdi. Əhməd bəy Ağayevin müdrikcəsinə dediyi kimi, qaranlıq səltənətdə məktəblər açıldı, qəzetlər nəşr olundu və tələbələri, oxucuları cəlb etdi.

Müşahidə və təhlillərimiz göstərir ki, "Kaspi" qəzeti Bakı quberniyasının Bakı şəhəri və quberniyanın kəndlərində məktəbin, maarifin vəziyyəti haqqında

yazılara daha çox yer ayırmışdır. Qəzetin səhifələrində məktəblərin ümumi vəziyyətinə aid statistik məlumatlar da vaxtaşırı görünürdü. Məsələn, bir statistik məlumatda göstərilir ki, Bakıda dini məktəb müəllimləri də daxil olmaqla 400 nəfərə yaxın orta və aşağı məktəb müəllimləri var idi [3]. Burada qeyd olunurdu ki, bu müəllimlər rəsmi xarakter daşıyan görüşlər istisna olmaqla, bir-biri ilə ünsiyyət qurmur, biri-biri ilə heç bir fikir və təəssüratlarını bölüşmür, əməli-təcrübi, işgüzar söhbətlər, fikir mübadiləsi aparmır. Xüsusi qeyd olunurdu ki, təkcə nəzəri bilik kifayət deyil, təcrübə də lazımdı, öz biliyini başqalarına ağılla, müəyyən pedaqoji tələbləri gözləməklə ötürmək bacarığı, həmçinin uşaqların psixologiyasına bələd olmaq, tədris metodlarını mənimsəyib tətbiq etməklə təcrübi işdə müvəffəqiyyət qazanmaq olar.

Qəzetin sonrakı saylarının birində belə bir təklif edilirdi ki, bu məqsədlə məktəb işlərinin səmərəli təşkili və formalaşdırılması, müəllimlərin əldə etdiyi müsbət təcrübələrinin, pedaqoji-metodik fəaliyyətinin bir mərkəzdə birləşdirilməsi üçün təhsil ixtisasına görə fərq qoyulmadan bütün Bakı müəllimlərindən ibarət klubun yaradılması arzuolunandır, xüsusi vaciblik qazanır [4].

Kənd məktəblərində də az-çox təlim keçmiş müəllim kontingentinə kəskin ehtiyac duyulurdu. Ölkədə kənd məktəbləri üç yerə ayrılırdı: məscid məktəbləri, rus dövlət ibtidai məktəbləri, çox az qisim ana dili məktəbləri. Bu məktəblər onu kimin saxlamasından asılı olmayaraq: xəzinə, kənd yerli idarəçilik cəmiyyəti (zemstvolar), təhsil və xeyriyyə cəmiyyətləri və ya fərdi şəxslər tərəfindən təşkil olunurdu.. Onlarda xüsusilə ana dilində tədris zəif təşkil olunmuşdu. Bu cür məktəblər tədris işinə az-çox uyğun müəllim olmadığından dəfələrlə bağlanırdı.

"Kaspi" qəzeti kənd məktəbləri ilə bağlı "Açıq söz" qəzetinə istinadən bu məktəblərdə müəllimlərin bilik səviyyəsinin aşağı olmasına işarə edərək yazırdı: *"Müəllimlərin çoxu keçmiş mollalar olub, daimi qazancı olmayan, dini qanunları öyrədən müəllim olublar. Elə vaxtlar olub ki, kəndlərdə dərviş rolunu da oynayıblar. Bu müəllimlərın pedaqogikadan, hətta onun elementar formasından mütləq məlumatsızlığı diqqəti cəlb edir"* [5].

Bütün bunlar tədris prosesində mənfi ab-hava yaradırdı. Təcili olaraq müəllimlərin qurultayını çağırmaq, onlar üçün xüsusi və qısamüddətli kurslar təşkil etmək zərurəti yarandı. Bu kursların başlıca məqsədi ondan ibarət idi ki, müəllimlər tədris üsulları ilə tanış olsunlar, sonra onların məktəbə uyğunluğunu müəyyən etsinlər.

İstər şəhərlərdə, istərsə də kəndlərdə hər il ibtidai məktəblər açıldığı üçün müəllimə ehtiyac da artırdı. Bu məqsədlə Məktəblər Direksiyası Bakıda ibtidai sinif müəllimlərinin hazırlanması üçün ikiillik pedaqoji kurslar açmışdır [6]. "Starıya" təxəllüslü müəllifə görə, bu kurslar Bakı quberniyasının bölgələri və Dağıstan vilayəti üçün müəllimlərin hazırlanması məsələsində yarımçıq

tədbirdir [6]. Lakin buna baxmayaraq, bu kurslar iki ildən sonra ibtidai məktəbdə işləmək üçün az da olsa, müəllimlər hazırlaya bildı. Pedaqoji kurslar müəllimlər seminariyasının surroqatı idi, yəni müəllim seminariyasının bəzi xüsusiyyətlərinə malik olmaqla onu əvəz edirdi. Bəzi yaxşı xüsusiyyətlərinə baxmayaraq, müəllimlər üçün nəzərdə tutulmuş pedaqoji kurslar təbii ki, cəmiyyətin artan tələbatını ödəmək iqtidarında deyildi. "Müəllim aclığını" aradan qaldırmaq üçün kəskin tədbirlər görülməli idi.

Pedaqoji kursların kifayət qədər maraqlı yaranma tarixi var. Bu kurslar Qafqaz təhsil dairəsinin müvəkkili N.F.Rudolf tərəfindən 1912-ci ildə layihələndirilmişdi. Bakı quberniyasının ehtiyacları üçün nəzərdə tutulmuş pedaqoji kurslar N.F.Rudolfun planına görə, 1907-ci ilin kurslarının "Qaydalar"ı əsasında fəaliyyət göstərməli idi. Bu "Qaydalar"dakı istifadəsi zəruri və əhəmiyyətli olan tələblərdən biri ondan ibarət idi ki, pedaqoji kursların müdavimləri ana dilini öyrətmək bacarığına malik olmalı, uşaqların ana dili üzrə məcburi biliyə yiyələnməsinə xüsusi diqqət yetirməlidirlər. Qəzetin qeyd etdiyi kimi, hələ 1881-ci ilin tədris ilindən nəzərdə tutulmuş yerli dövlət məktəbində uşaqlara ana dilinin məcburi tədris fənni kimi öyrədilməsi tələbi pedaqoji kursların müdavimləri tərəfindən həqiqətə çevrilməli idi [7].

XX əsrin ikinci onilliyinin sonunda qısamüddətli kurslar ideyası sanki unudulmuşdu. Görkəmli təhsil və maarif xadimlərimiz artıq Bakıda müstəqil müəllim seminariyası yaratmaq arzusunda idi və buna yaxınlaşma da açıq hiss olunurdu. Tədqiqatçı E.Vahabova bu vəziyyəti düzgün qiymətləndirərək yazırdı: "Lakin müharibə dövrünün şəraiti, əsasən də maliyyə çətinlikləri bu yaxşı ideyanın həyata keçirilməsinə mane oldu. Amma həyat, davam edirdi. Hər il Bakı quberniyasının kəndlərində müəllimlərə tələbat daha da kəskinləşir, məktəblərin sayı artdıqca müəllim çatışmazlığı da özünü aşıq-aydın göstərirdi. Adətən ixtisaslı müəllim heyəti, həmçinin dilləri (Avropa, rus və Azərbaycan dillərini) bilənlər və onları öyrətməyi və dərs aparmağı bacaran ixtisaslı müəllim heyəti şəhərlərdə, xüsusən də müəllimlərin maaşının daha çox olduğu, mühitin münasib olduğu mərkəzi şəhərlərdə, xüsusən də mədəni-mənəvi ehtiyaclarının ödənildiyi Bakı şəhərində qalmağa üstünlük verirdilər. Kəndlərdəki məktəblər yenidən müəllim kadrlarından məhrum olurdu. Hətta pedaqoji kursları bitirmiş keçmiş ali ibtidai məktəb şagirdlərinin müəllimləri də əlçatmaz oldu. Bu münasibətlə "Kaspi" müəllimlərin belə bir arzusunu dilə gətirirdi ki, "Bir tikə qara çörək arzusunda olan dilənçi vəziyyətindəydik. Buna görə də ilk fürsətdə daha çoxunu əldə etmək üçün təklif olunanı götürməli oldum" [7].

Beləliklə, göstərməliyik ki, Azərbaycan maarifçiliyinin qarşısında əhalinin oyanışı və milli ruhun dirçəlişi yolunda mübarizə amallarının gücləndirilməsi, onların fikir və düşüncəsinin zamanın tələblərinə uyğunlaşdırılması, mövhumat və cəhalət dumanının qarşısının alınması, həyata

və dünyaya yeni, təmiz və saf baxışların yaradılması başlıca məqsəd idi. Böyüyən nəsli savadlandırmaq və onda yüksək vətəndaşlıq və vətənpərvərlik kimi tərbiyə keyfiyyətləri formalaşdırmaq, azadlıq və müstəqillik ruhu aşılamaq, yaşadığı cəmiyyət həyatına hazırlamaq maarifçi ziyalıların çoxaspektli fəaliyyətinin tərkib hissəsi idi. Maarifçi hərəkat belə bir müqəddəs amalları həyata keçirmək üçün çoxlu vasitələrdən istifadə edirdi ki, bu vasitələrdən biri dövrü mətbuatın qabaqcıl nümunəsi "Kaspi" qəzeti idi. Burada insanın beynini işıqlandıran, onun zəkasını ətraf aləm, cəmiyyət həyatı haqqında bilik və təsəvvürlərlə zənginləşdirən məktəb və müəllimlə bağlı fikirlər pedaqoji fikrimizin əhəmiyyətli səhifələri hesab edilə bilər.

## ƏDƏBİYYAT


1. *Агаоглы А.* Наши учителя. Газета "Каспий", 1903, 3 октября
2. Газета "Каспий", 1905, 5 октября
3. Газета "Каспий", 1902, 12 декабря
4. Газета "Каспий", 1902, 21 декабря
5. Газета "Каспий", 1916, 29 июня
6. Газета "Каспий", 1915, 25 сентября
7. Газета "Каспий", 1915, 8 октября
8. *Гасан бек Зардаби.* Наши сельские школы. Газета "Каспий", 1899, № 176, 18 августа
9. *Зардаби Г.* Захолустная картинка. Газета "Каспий", 1885, №189
10. *Меликов-Зардаби Гасан-бек,* Гасан бек Зардаби. Избранные статьи и письма / Предисловие, комментарии и примечания З.Б.Геюшова, Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1962, 488 с.
11. *Топчибашев А.М.* Избранное: в 4-х томах, Т.1 / Составитель Гасан Гасанов. Баку, 2014, 576 с.


Redaksiyaya daxil olub 10.11.2022